DOI: https://doi.org/10.36719/2663-4619/117/64-68

**Fazil Ayvazalı**
Bakı Dövlət Universiteti
Magistrant
https://orcid.org/0009-0006-8569-6546
fazil.ay17@gmail.com

# Azərbaycan turizm sektorunun inkişafında beynəlxalq əməkdaşlıq lahiyələrinin rolu

## Xülasə

Məqalədə Azərbaycanın turizm sektorunun inkişafında beynəlxalq əməkdaşlıq layihələrinin rolu və bu layihələrin sosial-iqtisadi və mədəni təsirləri araşdırılır. Qloballaşma şəraitində turizm sektoru ölkələr arasında əməkdaşlığın güclənməsi, mədəniyyətlərarası dialoqun dərinləşməsi və regional inkişafın təmin olunması baxımından mühüm strateji sahəyə çevrilmişdir. Azərbaycan dünya turizm bazarının davamlı şəkildə dəyişən tələblərinə uyğun yeni turizm məhsullarının formalaşdırılması və onların qlobal bazara inteqrasiyası istiqamətində həm beynəlxalq təşkilatlarla, həm də xarici dövlətlərlə müxtəlif əməkdaşlıq proqramları, layihələr və anlaşmalar həyata keçirir. Bu imkanlardan səmərəli istifadə edərək ölkəmiz Avropa İttifaqı, UNWTO, UNESCO, GIZ, Türk Dövlətləri Təşkilatı və başqa beynəlxalq təşkilatlar ilə müxtəlif layihələr çərçivəsində əməkdaşlıq etmişdir. Məqalədə "EU4Culture", "COVCHEG", "İpək Yolu Fəaliyyət Planı" və Alman irsi layihələri nümunəsində regionlarda mədəni irsin qorunması, ekoturizmin və aqroturizmin təşviqi, dayanıqlı turizm modellərinin qurulması kimi məsələlər təhlil olunur.

Eyni zamanda, Azərbaycanın turizm təhsili sahəsində beynəlxalq ikili diplom proqramları və kadr hazırlığı təşəbbüsləri qeyd olunur. Bu layihələr həm ölkənin beynəlxalq imicinin möhkəmlənməsinə, həm də yerli icmaların rifah səviyyəsinin yüksəldilməsinə əhəmiyyətli təsir göstərmişdir. Nəticə olaraq, beynəlxalq turizm əməkdaşlığı Azərbaycanın turizm sektorunu dayanıqlı, rəqabətədavamlı və inteqrativ şəkildə inkişaf etdirmək üçün mühüm platformaya çevrilmişdir.

***Açar sözlər:*** *beynəlxalq turizm əməkdaşlığı, beynəlxalq turizm lahiyələri, turizm təhsili, alman irsi turizm, slowfood, turizm bazarına inteqrasiya*

**Fazil Ayvazali**
Baku State University
Master student
https://orcid.org/0009-0006-8569-6546
fazil.ay17@gmail.com

# The Role of International Cooperation Projects in the Development of the Azerbaijani Tourism Sector

## Abstract

This article explores the role of international cooperation projects in the development of Azerbaijan's tourism sector and examines their socio-economic and cultural impacts. In the context of globalization, tourism has become a strategic sector that facilitates international collaboration, deepens intercultural dialogue, and supports regional development. Azerbaijan actively engages with both international organizations and foreign countries through various cooperation programs, agreements, and initiatives aimed at developing tourism products aligned with the evolving demands of the global tourism market and integrating them into international platforms. Benefiting from these opportunities, Azerbaijan has partnered with institutions such as the European Union, UNWTO, UNESCO, GIZ, and the Organization of Turkic States to implement diverse tourism development projects. The article analyzes initiatives such as "EU4Culture," "COVCHEG," the "Silk Road Action Plan," and the German heritage tourism project as key examples of efforts to preserve cultural heritage, promote eco-tourism and agrotourism, and establish sustainable tourism models in the regions.

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

In addition, Azerbaijan's international dual degree programs and educational cooperation in the tourism sector are highlighted. These efforts have significantly contributed to strengthening the country's global tourism image and improving the welfare of local communities. In conclusion, international tourism cooperation has served as a vital platform for building a sustainable, competitive, and integrated tourism industry in Azerbaijan.

***Keywords:*** *international tourism cooperation, international tourism projects, tourism education, German heritage tourism, slow food, tourism market integration*

## Giriş

Müasir dövrdə turizm sektoru təkcə istirahət və əyləncə forması olmaqla kifayələnmir; o, həm də ölkələrin sosial iqtisadi inkişafında, beynəlxalq əlaqələrin qurulmasında və mədəniyyətlərarası ünsiyyətin gücləndirilməsində mühüm rol oynayan vasitə kimi çıxış edir. Qloballaşmanın sürətlənməsi ilə turizm sahəsi ölkələr arasında əməkdaşlıq və qarşılıqlı inteqrasiyanın effektiv vasitəsinə çevrilmiş, iqtisadi və mədəni əlaqələrin genişlənməsinə şərait yaratmışdır. Bu baxımdan beynəlxalq turizm lahiyələri, müxtəlif ölkələr arasında təcrübə mübadiləsini təşviq etməklə yanaşı, ortaq turizm brendlərinin yaradılması və infrastruktrun inkişafı üçün əhəmiyyətli mexanizm kimi çıxış edir.

**Tədqiqat**

Azərbaycan Respublikasında turizmin inkişafı vacib istiqamətlərdən biri kimi qiymətləndirilmiş, bu sahədə milli strategiyalarla yanaşı, beynəlxalq əməkdaşlıqlara da xüsusi önəm verilmişdir. Bu öz əksini ölkədə turizmin inkişafını istiqamətləndirən, hərtərəfli və strateji çərçivəni müəyyən edən "Azərbaycan Respublikasının turizm strategiyası 2023-2026" sənədində də tapır. Strategiyanın əsas prinsiplərindən biri də məhz Azərbaycanın turizminin inkişaf etdirilməsi məqsədi ilə qabaqcıl beynəlxalq təcrübənin əsas götürülməsi və beynəlxalq əməkdaşlıqlardan maksimum fayda əldə edilməsidir (Azərbaycan Turizm Bürosu, 2024).

**Azərbaycan turizm sektorunda beynəlxalq əməkdaşlıq lahiyələri.**

Turizm sahəsində həyata keçirilən beynəlxalq lahiyələr istər Avropa İttifaqı tərəfindən maliyyələşdirilən regional təşəbbüslər, istərsə də Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumları ilə birgə icra olunan proqramlar Azərbaycanın turizm potensialının tanıdılmasına, infrastrukturun təkmilləşdirilməsinə, və xidmət keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılmasına əhəmiyyətli töhfə vermişdir. Eyni zamanda bu lahiyələr ölkənin mədəni irsinin qorunması, ekoturizm və kənd turizmi imkanlarının inkişafı, regionların cəlbedici turizm məkanlarına çevrilməsi baxımından da geniş imkanlar açır.

Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı müxtəlif sahələri əhatə etdiyi kimi, turizm sektorunda da genişmiqyaslı lahiyələr və təşəbbüslərlə müşahidə olunmaqdadır. Bu lahiyələr əsasən ittifaqın "Şərq Tərəfdaşlığı" proqramının tərkib hissəsi kimi formalaşaraq Azərbaycanın turizm potensialının inkişafı, regionların tanıdılması, mədəni irsin qorunması və dayanıqlı turizm modellərinin təşviqi məqsədi daşıyır. Bu lahiyələrdən biri "EU4Culture" Şərq tərəfdaşlığı ölkələrində mədəniyyət yə yaradıcı sahələrin inkişafını dəstəkləyən, 2021-2024 cü illəri əhatə edən proqramdır (İsmayılzadə, 2025).

Azərbaycanda Quba, Şəki, Gəncə və Lənkəran kimi şəhərləri əhatə edən bu təşəbbüs çərçivəsində yerli mədəniyyət strategiyaları hazırlanmış, icmaların iştirakı ilə festivallar və mədəni tədbirlər təşkil olunmuşdur. Məsələn, 2022-ci ildə Şəki şəhəri EU4Culture tərəfindən "Qeyri-paytaxt Mədəniyyət Şəhəri" seçilərək, burada şəhərə məxsus 2022–2025-ci illəri əhatə edən Mədəniyyət İnkişaf Strategiyası hazırlanmışdır. Layihə çərçivəsində yerli sənətçilər üçün təlimlər təşkil olunmuş, tarixi İpək Yolu kontekstində mədəni turizm marşrutları formalaşdırılmış və Şəkinin UNESCO statusu əsasında xüsusi turizm brendi yaradılmışdır. Bu fəaliyyətlər nəticəsində şəhərin turizm cəlbediciliyi artmış, regiona yeni turist axınları qeydə alınmış və yerli əhalinin məşğulluğuna müsbət təsir göstərilmişdir (EU4Culture, 2022).

Azərbaycanda kənd icmalarının mədəni müxtəlifliyinin qorunması və inkişaf etdirilməsi məqsədilə həyata keçirilən mühüm layihələrdən biri də COVCHEG layihəsidir. Avropa İttifaqının maliyyə dəstəyi ilə icra olunan bu təşəbbüs, Böyük Qafqaz dağlıq ərazilərində yerləşən bölgələrdə iqtisadi və mədəni inkişafı təşviq edir. Layihə "Slow Food" beynəlxalq təşkilatı tərəfindən idarə

olunur və Azərbaycan Turizm Bürosu ilə tərəfdaşlıq çərçivəsində həyata keçirilir. (Azərbaycan Turizm Bürosu, 2021).

2018–2021-ci illəri əhatə edən layihənin əsas məqsədi, yox olmaq təhlükəsi ilə üzləşmiş yerli qastronomik irsin qorunması və bu irsin turizmə inteqrasiyası olmuşdur. Şamaxı, İsmayıllı, Qəbələ, Şəki və Qax rayonları üzrə aparılan fəaliyyətlər nəticəsində bu bölgələrin qastronomik potensialı sistemləşdirilmiş, turistlər üçün yerli qida istehsalının prosesini əyani şəkildə izləyə biləcəkləri interaktiv marşrut xəritəsi hazırlanmışdır.

Layihə çərçivəsində Azərbaycanın müxtəlif bölgələrində 80-ə yaxın yerli qida məhsulu və kulinariya ənənəsi siyahıya alınmış, onlardan 31-i beynəlxalq miqyasda tanınan "Ark of Taste" kataloquna daxil edilmişdir. Bu məhsullar arasında Ata-baba fındığı, Qafqaz camışı, Mədrəsə üzümü və Qafqaz dağ balı kimi ölkəyə məxsus unikal qastronomik nümunələr yer alır (Azerbaijan Travel, 2021).

Nəticə etibarilə, bu təşəbbüs Azərbaycanın şimal-qərb regionlarında dayanıqlı turizmin inkişafına, yerli əhalinin iqtisadi rifahının yüksəlməsinə və milli qastronomik dəyərlərin beynəlxalq səviyyədə tanınmasına şərait yaratmışdır (Azərbaycan Turizm Bürosu, 2021).

Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığın mühüm sahələrindən biri də məhz regionların inkişafını dəstəklənməsidir. Bu sahədə həyata keçirilən proqramlar çərçivəsində Azərbaycanda həyata keçirilən layihələr əsasən regionlarda yerli əhalinin məşğulluğunun artırılması, sosial rifahın yaxşılaşdırılması və dayanıqlı inkişafın təşviqinə yönəlmişdir. Bu layihələr eyni zamanda kənd turizmi, aqroturizm və peşə təhsili sahələrində mühüm nəticələr vermişdir.

2017–2019-cu illərdə icra olunan "Gəncə-Qazax iqtisadi rayonunda yerli və regional inkişafa dəstək" layihəsi çərçivəsində 300 təşəbbüs və 16 pilot tədbir həyata keçirilmiş, turizm və kənd təsərrüfatının planlı inkişafı üçün əsaslar yaradılmışdır. "İcma-əsaslı aqroturizmin təşviqi" layihəsi isə (2017–2021) aqroturizmdə məşğulluğun artırılmasına və dövlət–özəl tərəfdaşlığının inkişafına töhfə vermişdir.

2018–2020-ci illəri əhatə edən layihə çərçivəsində Daşkəsən, Goranboy və Samux rayonlarında 10 kənd turizm qrupu avadanlıqla təmin edilmiş, kənd turizmi və arıçılıq üzrə qanunvericilik təşəbbüsləri hazırlanmışdır. Digər bir layihə – Qəbələ, İsmayıllı və Qax rayonlarında peşə təhsili və təlim pilotlarının yaradılması (2017–2020) – turizm sahəsində kurikulumlar, təlim modulları və müştəri xidməti üzrə tədris proqramlarının tətbiqinə səbəb olmuşdur (Avropa İttifaqı, 2020).

Azərbaycanın mədəni-antropogen turizm potensialının beynəlxalq miqyasda tanıdılması istiqamətində həyata keçirilən əməkdaşlıq layihələrindən biri də alman mədəni irsinin tanıdılması üzrə təşəbbüsdür. Bu layihə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ), Azərbaycan Turizm Bürosu və Gürcüstan Milli Turizm İdarəsi arasında əməkdaşlıq çərçivəsində reallaşdırılmışdır. Layihənin əsas məqsədi XIX əsrdə regiona köç etmiş alman icmalarının mədəni-tarixi irsini qorumaq və bu irsi turizm məhsuluna çevirməklə geniş auditoriyaya təqdim etmək olmuşdur.

Bu təşəbbüs çərçivəsində həyata keçirilən əsas fəaliyyətlərə alman irsinə malik bölgələri birləşdirən vahid turizm marşrutunun yaradılması, tarixi abidələrin xəritələşdirilməsi və bərpası, promosyon materiallarının hazırlanması, eləcə də mədəni irsi əks etdirən sərgi və tədbirlərin təşkili daxildir. Bu qəbildən olan tədbirlərdən biri də 2019-cu ildə keçirilmiş "Germanaijan" sərgisi olmuşdur. Sərgi çərçivəsində Azərbaycanda yerləşən alman memarlıq nümunələri geniş ictimaiyyətə təqdim olunmuşdur.

Layihədə təqdim olunan əsas mədəni irs obyektlərinə Göygöldəki Yelenendorf qəsəbəsi, Şəmkirdəki Annenfeld, Bakı şəhərindəki Lüteran kilsəsi və digər tikililər daxildir. Son illərdə bu mədəniyyət nümunələrinin qorunması və turizm məqsədilə istifadəsi istiqamətində bərpa və konservasiya işləri görülmüş, o cümlədən Şəmkir Lüteran kilsəsi və bəzi yaşayış binaları təmir edilmişdir. Eyni zamanda, 2007-ci ildə Göygöldə alman əsilli Viktor Kleinin evi onun vəfatından sonra muzeyə çevrilmişdir, bu da irsin qorunması baxımından mühüm addım olmuşdur (Azərbaycan Turizm Bürosu, 2025).

Bu layihə nəticəsində Azərbaycan və Gürcüstanda tematik mədəni irs turizmi məhsulu formalaşmış, Almaniya və digər ölkələrdən bu bölgələrə maraq göstərən turistlərin sayı artmışdır. Artan turizm axını bölgədə infrastrukturun genişlənməsinə və xidmət keyfiyyətinin yaxşılaşdırılmasına təkan vermişdir (GIZ, 2022).

Bununla yanaşı, Azərbaycanın qlobal turizm bazarında rəqabət qabiliyyətinin gücləndirilməsi baxımından turizm təhsili sahəsində beynəlxalq əməkdaşlıq layihələri də mühüm əhəmiyyət daşıyır. Belə əməkdaşlıqlar vasitəsilə tələbələr beynəlxalq təcrübə qazanır, tədris proqramları beynəlxalq standartlara uyğunlaşdırılır və nəticədə, peşəkar turizm mütəxəssislərinin hazırlanması prosesinə töhfə verilir (AzerNews, 2014).

Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) turizm təhsili sahəsində beynəlxalq əməkdaşlıqlar həyata keçirən aparıcı universitetdir. 2007-ci ildən Avstriyanın IMC Krems Universiteti ilə birgə həyata keçirilən Azərbaycan–Avstriya Turizm Proqramı (AATP) tələbələrə turizm menecmenti üzrə ikili diplom imkanı təqdim edir. Proqramın məzunlarının əksəriyyəti hazırda ölkənin turizm sənayesində çalışır. 2023-cü ildən isə ATMU və Türkiyənin Eskişehir Osmangazi Universiteti arasında 2+2 formatlı ikili diplom proqramı fəaliyyətə başlamışdır. Universitet eyni zamanda məzunlarına Özbəkistanın "Silk Road" Universiteti və Qazaxıstandakı ali məktəblərdə magistr təhsili almaq imkanı da təqdim edir (ATMU, 2025).

Azərbaycan turizm layihələrində əsas istiqamətlərdən biri də İpək Yolunun bərpasıdır. Bu qədim ticarət və mədəniyyət marşrutu təkcə tarixi keçmişin izlərini daşımır, həm də müasir dövrdə beynəlxalq turizm əməkdaşlığının, mədəni diplomatiyanın və dayanıqlı inkişafın simvoluna çevrilmişdir. Azərbaycanın coğrafi mövqeyi, İpək Yolunun Qafqaz qolu üzərində yerləşməsi bu potensialdan səmərəli istifadə etməyə əlverişli şərait yaradır.

İpək Yolunun yenidən canlandırılması çərçivəsində Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Xüsusilə Ümumdünya Turizm Təşkilatı (UNWTO) tərəfindən hazırlanmış "İpək Yolu Fəaliyyət Planı" bu baxımdan mühüm çərçivə sənədidir. Bu plan ölkələr arasında turizm marşrutlarının inteqrasiyasını, mədəni irsin qorunmasını və vahid brend altında tanıtımı nəzərdə tutur. (UNWTO, 2024). Azərbaycan bu təşəbbüs çərçivəsində yeni turizm məhsullarının yaradılması, regionlarda İpək Yolu mərkəzlərinin təşkili və beynəlxalq festivalların keçirilməsi kimi istiqamətlərdə fəal fəaliyyət göstərir. Belə festivallardan biri də "İpək yolu Beynəlxalq Musiqi Festivalı" hesab edilə bilər. Bu musiqi festivalı 2010-cu ildən bu günə Şəkidə açıq havada üzv ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilir. Tədbirin açıq havada keçirilməsi Şəki tarixi abidələrinin vizual olaraq təqdim edilməsinə dəstək olur (Silkroad, 2023).

Eyni zamanda UNESCO ilə əməkdaşlıq çərçivəsində aparılan işlər nəticəsində Şəki şəhərinin tarixi hissəsi və Xan Sarayı 2019-cu ildə Dünya İrs Siyahısına daxil edilmişdir. Bu kimi addımlar yalnız mədəni irsin qorunmasına deyil, həm də ölkənin beynəlxalq turizm brendinin möhkəmləndirilməsinə xidmət edir.

Bu tarixi marşrutun müasir dövrdə yenidən canlandırılması isə yalnız iqtisadi baxımdan deyil, həm də turizmin inkişafı və mədəni əlaqələrin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Bu çərçivədə, Türk Dövlətləri Təşkilatı (TDT) üzv ölkələr arasında turizm sahəsində əməkdaşlığı gücləndirmək, ortaq mədəni irsi tanıtmaq və vahid turizm marşrutları formalaşdırmaq məqsədilə bir sıra təşəbbüslər irəli sürmüşdür. Azərbaycan bu təşəbbüslərdə fəal şəkildə iştirak edərək həm öz mədəni-tarixi məkanlarını təqdim edir, həm də türk dövlətləri ilə inteqrasiyalı turizm strategiyasına dəstək verir. Ümumiyyətlə araşdırmalara görə mədəni və təbii irsə əsaslanan turizm məhsulları, ümumi turist axınları içərisində aparıcı yer tutur. Bu məqsədlə səyahət edən turistlər, digər turizm növləri ilə müqayisədə daha yüksək xidmət keyfiyyəti gözləntilərinə malik olmaqla yanaşı, səyahət zamanı daha çox maliyyə vəsaiti xərcləməyə meyllidirlər (Dərgahov, 2022).

Eyni zamanda, "Ortaq Turizm Paketi" layihəsi çərçivəsində Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan öz mədəni irs və tarixi turizm məkanlarını vahid marşrut çərçivəsində təqdim edir. Azərbaycanın Şəki, Qobustan, Lahıc və Xınalıq kimi tarixi əraziləri bu marşrutun əsas məntəqələri sırasında yer alır. Təşkilat çərçivəsində birgə sərgilər, marketinq kampaniyaları və rəqəmsal tanıtım platformaları vasitəsilə Türk dünyası vahid turizm brendi kimi formalaşır. (Turkic Silk Road, 2025).

## Nəticə

Azərbaycanın turizm sektorunun inkişafı istiqamətində həyata keçirilən beynəlxalq əməkdaşlıq layihələri, ölkənin qlobal turizm sisteminə inteqrasiyası və milli turizm potensialının tanıdılması baxımından mühüm əhəmiyyət daşıyır. Avropa İttifaqı, UNWTO, UNESCO və Türk Dövlətləri Təşkilatı kimi nüfuzlu qurumlarla birgə reallaşdırılan layihələr həm institusional bacarıqların

formalaşmasına, həm də yerli səviyyədə mədəni və iqtisadi canlanmaya səbəb olmuşdur. Bu əməkdaşlıqlar nəticəsində regionlarda mədəni irs qorunmuş, kənd turizmi və aqroturizm təşviq edilmiş, peşə təhsili sahəsində keyfiyyət yüksəlmiş və yerli icmaların turizmdə iştirakı güclənmişdir.

EU4Culture və COVCHEG kimi layihələr vasitəsilə Azərbaycan regionlarının mədəni kimliyi qorunmaqla yanaşı, bu irs turizm məhsullarına çevrilmişdir. Alman irsinin tanıdılması ilə bağlı layihələr, tematik mədəni turizm marşrutlarının formalaşmasına töhfə vermiş, İpək Yolunun yenidən canlandırılması isə ölkənin beynəlxalq turizm xəritəsindəki mövqeyini gücləndirmişdir. Eyni zamanda, turizm təhsili sahəsində Avstriya, Türkiyə və Orta Asiya ölkələri ilə qurulan əməkdaşlıqlar gələcək kadr potensialının formalaşmasına şərait yaratmışdır.

Bütün bu layihələr göstərir ki, beynəlxalq əməkdaşlıq yalnız texniki dəstək və maliyyə yardımı ilə məhdudlaşmır, eyni zamanda bilik və təcrübə mübadiləsi üçün platforma rolunu oynayır. Azərbaycan bu əməkdaşlıqlardan strateji şəkildə istifadə edərək öz turizm sektorunu daha rəqabətli, inklüziv və dayanıqlı formada inkişaf etdirməyi bacarmışdır. Gələcəkdə bu təcrübənin davam etdirilməsi, həm regional turizm məhsullarının zənginləşdirilməsi, həm də ölkənin beynəlxalq turizm mərkəzinə çevrilməsi baxımından mühüm əsas olacaqdır.

## Ədəbiyyat

1. Avropa İttifaqı. (2020). *Avropa İttifaqının Azərbaycanın regionlarının inkişafına yardımı*[Broşura]https://www.eeas.europa.eu/sites/default/files/ eu_regional_dev_br ochure _2020_az_0.pdf
2. Azerbaijan.travel. (2021, 30 avqust). Ölkəmizdə "Ləzzət Gəmisi" menyusunun təqdimatı keçirilib. https://azerbaijan.travel/kiv/press-relizler/ olkemizde-lezzet-gemisi-menyusunun-teqdimati-kecirilib
3. AzerNews. (2014, iyun 17). EU project develops tourism in Azerbaijan. https://www.azernews.az/nation/68071.html
4. Azərbaycan Turizm Bürosu (2021). *Slow Food Travel Azerbaijan.* https://azerbaijan.travel/tourism-development-strategy/slow-food-travel-azerbaijan?action=pdf#dflip-flipbookContainer/25/
5. Azərbaycan Turizm Bürosu (2025). *Şəmkirdə Alman irsi ilə tanışlıq. https://azerbaijan.travel/semkirde-alman-irsi-ile-tanisliq*
6. Azərbaycan Turizm və Menecment Universiteti. (2025). İkili diplom proqramı - Beynəlxalq əlaqələr. https://atmu.edu.az/az/ikili-diplom-beynelxalq-elaqeler
7. Dərgahov V., Talıbov S., Məmmədov Q., Babazadə S. *Azərbaycanda mədəni və təbii irsin eko-mədəni destinasiyalarin formalaşmasinda perspektivləri (Tuğ, azix kəndləri və ətraf ərazilərin timsalinda)* Turizm və qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal. İl 11, Say 1, 2022/
8. EU4Culture. (2022) *Cultural Development Strategy for Sheki City 2022-2025. https://www.heritage.org.az/storage/2022/11/01/9LSacFgC8jAduXuaMNA64ayiThzX3h2UqkjXforD.pdf*
9. Ismailzade, F. (2025). Azerbaijan and the Eastern Partnership initiative: The past and the future. ECIPE Occasional Paper. https://ecipe.org/wp-content/uploads/2025/04/Fariz-Ismailzade.pdf
10. Silkroad Azerbaijan. (2023). Rəsmi Silk Road Azərbaycan platforması. https://silkroad-az.com/
11. The Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ*). Tracing the German Heritage of the South Caucasus. https://api.gnta.ge/storage /files/ doc/21x25 -9-9-22.pdf*
12. Turkic Silk Road. (2025). Azerbaijan. https://www.turkicsilkroad.com/azerb aijan
13. UNWTO. (2024) *Silk Road Action Plan 2014-2015. https://webunwto.s3-eu-west 1.amazonaws.com/imported_images/42948/silkroadactionplaningles.pdf*